DIGIRES Baltijos skaitmeninio atsparumo tyrimų centras

Baltic Engagement Centre for Combating Information Disorders

# MÜƏLLIMLƏR ÜÇÜN DIGIRES TƏLIMAT KITABÇASI

*Media və informasiya savadlılığı təlimlərini sinifdə yaradıcı şəkildə necə tətbiq etmək olar?*



# MÜNDƏRİCAT

Giriş ........ 3

Dərslər üçün nəzərdə tutulmuş fəaliyyətlər ........ 5

1. Mətni anlama: şaquli istiqamətdə oxuduğumuzu bilirdinizmi? ........ 5
2. Kütləvi informasiya vasitələri ilə əhatə olunmaq: gündəlik həyatda informasiya obyektlərinin rolu ........ 9
3. Qərəzli düşüncə: nəyə görə təhlükəlidir? ........ 14
4. İnformasiya axtarışı: qeyri-müəyyən şəraiti necə idarə edə bilərik? ........ 19

NƏTİCƏ: DAHA SONRA NƏ ETMƏLİ? ........ 23

Faydalı linklər və resurslar ........ 23

BECID HAQQINDA ........ 24

DIGIRES HAQQINDA ........ 24

ƏLAVƏ. "İşarələrin mənasının açılması" materialı: qruplar tərəfindən müzakirə ediləcək suallar

# GIRIŞ

Qlobal rəqəmsal kommunikasiya və intensiv informasiya axını dövründə yaşayırıq. Burada müasir media vasitəsilə etibar edilə bilən yüksək keyfiyyətli kontentdən tutmuş, yanıldıcı və ya süni intellekt tərəfindən hazırlanan kontentə qədər geniş çeşidli məlumatlara rast gəlirik. Rəqəmsallaşma sürətləndikcə yanlış, aldadıcı və çox vaxt ədavətli olan kontentin həcmi sürətlə artır. Bu cür kontent demokratik davamlılıq üçün ciddi çətinlik yaradır, qərar qəbuletmə proseslərini pozur və ictimai narazılığa səbəb olur. Fərqli media gündəlik həyatımızın və kimliyimizin bir hissəsinə çevrilsə də, **həqiqəti necə axtaracağımızı və etibarlı mənbəni yanlış və ya manipulyasiyaedici mənbədən necə ayırd edəcəyimizi bilirikmi? Şəkil, səs, mətn, simvol və datadan ibarət sonsuz qarışıqlığı, habelə bunlarla birlikdə meydana çıxan insan və maşın kommunikasiyalarını necə anlaya bilərik?**

Çoxsaylı məlumat və datanın olduğu dünyada aydınlığın təmin edilməsi vacibdir, habelə nəyə və ya kimə etibar edəcəyimizi bilməliyik. Buna görə də ətrafımıza, yəni informasiya və hər cür yayındırma, yaxud manipulyasiyalarla dolu dünyaya fərqli baxmağı öyrənməliyik.

Hər dəfə özümüzə bu sualı verməliyik: **"Smartfon və ya kompüter ekranında gördüklərimiz doğrudurmu?"**

**Müəllim** biliyin keşikçisi və insan yaradıcılığına ilham verən tərbiyəçidir, habelə fənn üzrə geniş təcrübəyə malik şəxsdir.

Lakin o, bu bilikləri media dünyası perspektivindən çatdırmaqda çox vaxt çətinlik çəkir. Şagirdləri geniş ilkin bilik tələb etmədən prosesə cəlb etmək üçün daha strukturlu fəaliyyətlərə ehtiyac var.

Buna görə də müxtəlif fənlərə asanlıqla uyğunlaşdırıla bilən nümunələr və detallı ssenarilərin olduğu cəlbedici praktik fəaliyyətlərdən ibarət innovativ təlimat təqdim edirik. Təlimat Rəqəmsal Dayanıqlılıq üzrə Baltikyanı Araşdırma Mərkəzi olan **DIGIRES**, media savadlılığı və media ekspertlərindən ibarət komanda tərəfindən hazırlanıb, həmçinin Dezinformasiya Problemi ilə Mübarizə üzrə Baltikyanı İnteraksiya Mərkəzi (**BECID**) tərəfindən təkmilləşdirilib və sınaqdan keçirilib.

# GIRIŞ

Bu fəaliyyətlər media savadlılığı təhsilini şagirdlərin təcrübələri ilə daha yaxından əlaqələndirmək, onları cəlb etmək və onlarla ünsiyyət qurmaq, habelə perspektivlərini dinləmək məqsədi daşıyır.

Ən yaxşı media savadlılığı təhsili gündəlik **həyat problemləri haqqında söhbətdir**.

Məhz buna görə də DIGIRES fəaliyyətləri bütün iştirakçıları ictimai sahədə təqdim edilən məlumatlar barədə düşünməyə, bu məlumatları sorğulamağa, habelə rahatlıq zonasından çıxmağa həvəsləndirmək üçün nəzərdə tutulub, çünki əsl öyrənmə məhz buradan başlayır.

Həmçinin iştirakçıların təcrübələrini əks etdirməyin vacibliyi vurğulanır. Yalnız düşünməklə düzgün nəticə çıxarmaq olar.

Praktiki fəaliyyətlərə müəllimin media savadlılığı dərslərinə vaxtında və keyfiyyətli hazırlanmasına tam dəstək olmaq üçün ətraflı və ardıcıl plan, məsləhətlər və təlimatlar, müzakirə sualları daxildir.

**Müqayisəli oxu** metodu etibarlı mənbənin əlamətlərini müəyyən etməyi, mətn və vizual məlumat etibarlılığını qiymətləndirməyi, mətn təhlili bacarıqlarını və detallara diqqəti inkişaf etdirməyi, habelə kontenti asta şəkildə mənimsəməyin vacibliyini öyrədəcək.

İnteraktiv fəaliyyət olan **Media gəzintisi** ətrafınızdakı media dünyasının fərqinə varmağa və onu tanımağa, gündəlik mühitdə informasiya və media obyektlərinin mənasını anlamağa təşviq edəcək.

İnteraktiv fəaliyyət olan **Fikirlərin bölünməsi** dixotom düşüncənin, habelə məfhumların "qara" və ya "ağ" kimi təsnif edilməsinin cəmiyyəti necə parçaladığını, qarşıdurma, qütbləşmə və nifrət nitqinə sövq etdiyini anlamağa kömək edəcək.

**Qeyri-müəyyənliyi anlama** metodu qeyri-müəyyən vaxtlarda emosiya, davranış və məlumat axtarışı meyillərini tanımağa kömək edəcək. Bu, həmçinin xüsusilə böhran və qeyri-müəyyənlik dövrlərində geniş yayılan saxta xəbərlər, təbliğat kimi manipulyasiya və dezinformasiyaya qarşı çıxmaq qabiliyyətini artıracaq.

Bizə qoşularaq öyrənmə və paylaşma mədəniyyətini inkişaf etdirmək üçün kollektiv bilik və təcrübədən istifadə edin!



# 1. Mətni anlama: şaquli istiqamətdə oxuduğumuzu bilirdinizmi?

Mətnin oxunması və təhlili ilə manipulyativ kontentin aşkarlanması və aradan qaldırılması gücləndirilir və bunu gündəlik həyatda asanlıqla tətbiq olunan müxtəlif üsullarla effektiv şəkildə inkişaf etdirmək mümkündür. İnternetə nəzər salmaqla müşayiət edilən vacib vərdiş müqayisəli (hərfi mənada desək, yan-yana) oxudur.

Müqayisəli oxu mənbə daxilində məlumat axtarmağı, eyni anda bir neçə perspektiv və mənbəni araşdırmağı əhatə edən mühüm media savadlılığı bacarığıdır. Bu metod hər kəsə qarşılaşdığı məlumatın etibarlılıq və düzgünlüyünü qiymətləndirmək imkanı verir. Şagirdlər müxtəlif platformalardakı datanı müqayisə edərək, fərqli mənbələrin peşəkarlıq və qərəzliliyini təhlil edərək mürəkkəb məsələləri daha yaxşı başa düşür, etibarlı və yanlış məlumatları ayırd edə bilirlər. Müqayisəli oxu tənqidi düşüncəni təşviq edir və şagirdlərə rəqəmsal medianın geniş mənzərəsini səmərəli şəkildə idarə etmək imkanı verir.

Müqayisəli oxu mənbənin etibarlılığını müəyyən etmək üçün effektiv strategiyadır. Daxil edilən məlumatları digər mənbələrlə müqayisə edərək iddiaları yoxlaya və mənbə haqqında daha çox kontekstual məlumat əldə edə bilərsiniz. Peşəkar fakt yoxlayıcıların istifadə etdiyi bu metod onların gündəlik işlərində mənbənin etibarlılığını yoxlamaq üçün əsas vasitədir.

Məlumatların bu şəkildə emalı eyni veb-saytda (həmin veb-sayt haqqında daha çox məlumat əldə edilə bilər) nisbətən az vaxt sərf etməyi nəzərdə tutur. Bunun əvəzinə səhifədən çıxaraq digər etibarlı mənbələrin sayt haqqında söylədiklərinə nəzər salınır. Məsələn, nəzərdən keçirilən saytı daha yaxşı anlamaq üçün bir neçə brauzer tabının açılması, internetdəki müxtəlif məlumatların birləşdirilməsi və müxtəlif mənbələrin müqayisəsi buna nümunədir.

Peşəkar fakt yoxlayıcıların verdiyi sualların çoxu sadəcə bir mənbəyə fokuslanan (hərfi mənada desək, "şaquli istiqamətdə oxuyan") oxucular tərəfindən verilən suallarla eynidir. Lakin bu oxuculardan fərqli olaraq onlar başa düşürlər ki, dəqiq məlumatı saytın özündən daha çox sayta yönləndirən linklər (və onun haqqında şərhlər) şəbəkəsində tapmaq mümkündür.

Müqayisəli oxu oxucuya daxil olduğu saytın keyfiyyətini məlumatın düzgünlüyü baxımından qiymətləndirməyə kömək edir, orada dərc olunan kontentə daha geniş perspektiv təqdim edir və saytdakı faktların düzgünlüyünü qəbul etməyə imkan verəcək redaksiya prosesi və ya ekspert reputasiyasının olub-olmadığını anlamağa kömək edir.

DƏRSLƏR ÜÇÜN NƏZƏRDƏ TUTULMUŞ FƏALIYYƏTLƏR

# 1. Mətni anlama: şaquli istiqamətdə oxuduğumuzu bilirdinizmi?

## DƏRSIN MÖVZUSU

**Etibarlı məlumat axtarışı üçün müqayisəli oxu metodu**

## SINIF

9–12

## BU DƏRS PLANININ INTEQRASIYA EDILƏ BILƏCƏYI FƏNLƏR

Ana dili dərsləri (Litva, Latış, Estoniya), İngilis və ya digər xarici dillər, tarix, həyat bilgisi, informasiya texnologiyaları (İT) və ya qeyri-formal təhsil fəaliyyəti.

## DƏRSIN MƏQSƏDI

**Müqayisəli oxu** anlayışını və metodunu təqdim etmək, bu texnikanın gündəlik həyatda tətbiq qaydasını göstərmək.

## ÖYRƏNMƏ MƏQSƏDLƏRI

1. Etibarlı mənbə xüsusiyyətlərini müəyyənləşdirmək.
2. Mətn və vizual məlumatın etibarlılığını qiymətləndirməyi öyrənmək.
3. Mətn təhlili bacarıqlarını inkişaf etdirmək, detallara diqqət yetirmək və kontentin daha asta mənimsənilməsinin əhəmiyyətini anlamaq.

## TƏTBIQ EDILƏN FƏALIYYƏT

Müqayisəli oxu.

## MÜDDƏT

45 dəq.

## TƏLƏB EDILƏN MATERIALLAR

1. Dezinformasiyanın müxtəlif mətn əsaslı nümunələri (məsələn, xüsusi veb-saytdakı məqalə, xüsusi sosial media qrupundakı post).
2. Kompüter.
3. Proyektor (və ya smart lövhə).

## HAZIRLIQ

Müəllim onlayn məlumatları mənimsəyərkən istifadə edilə biləcək müqayisəli oxu metodu ilə bağlı prezentasiya hazırlayır. Prezentasiya Stanford Universiteti tərəfindən təmin edilən tədris materiallarından (İngilis dilində) istifadə edərək hazırlana bilər.

Dərsdən əvvəl müəllim dezinformasiyaya dair bir neçə nümunə seçir (məsələn, müəyyən veb-saytdakı məqalə və ya xüsusi sosial media qrupundakı post).

# 1. Mətni anlama: şaquli istiqamətdə oxuduğumuzu bilirdinizmi?

Uyğun nümunələrə fəal şəkildə dezinformasiya yayan veb-saytda dərc edilmiş məqalə; etibarlı media kanalını təqlid edən və etibarlı veb-saytın atributlarını, məsələn, loqosunu, adını, məqalələrin üslubu və s. kopiyalayan saxta veb-sayt; seçilmiş sosial mediada yerləşdirilən mübahisəli qrupdakı post daxildir. Seçilmiş nümunələrə mətn və vizual material da daxil edilə bilər. Lakin ən vacib məqam onların məqalə şəklində olması, yəni nümunənin böyük hissəsinin mətn materialından ibarət olmasıdır.

## STRUKTUR/FƏALIYYƏT

## TƏQDIMAT (~10 DƏQ.)

Müəllim müqayisəli oxu metodu haqqında prezentasiya təqdim edir, onun əhəmiyyətini və real həyatda tətbiqini izah edir.

## QRUP IŞI (~10-15 DƏQ.)

Şagirdlərə fərdi və ya 2-3 nəfərlik kiçik qruplar şəklində yerinə yetirilə bilən praktik tapşırıq verilir.

Hər şagird fərdi və ya qrup şəklində öz kompüterində (və ya hər hansı digər elektron cihazda) müəllimin təqdim etdiyi dezinformasiya nümunəsini açır.

**Tapşırığın məqsədi** aşağıdakıları icra etmək üçün əlçatan olan bütün açıq mənbələrdən istifadə etməkdir:

- nümunənin yerləşdirildiyi veb-sayt haqqında mümkün qədər çox məlumat əldə etmək,
- məqalə və ya mesajın müəllifini tapmaq,
- nümunədə hansı məlumatın düzgün, hansının yanlış olduğunu müəyyən etmək,
- nümunənin etibarlılığını qiymətləndirmək.

Tapşırıq fərdi şəkildə yerinə yetirilirsə, şagirdlərə eyni dezinformasiya nümunəsi və ya qrup halında olduqda hər qrupa fərqli dezinformasiya nümunəsi verilə bilər. Yanaşmadan asılı olmayaraq tapşırıq əməkdaşlıq və qarşılıqlı dəstəyi təşviq edir. Tapşırığı yerinə yetirdikdən sonra şagirdlər əldə etdikləri nəticələri müdafiə etmək üçün mümkün qədər çox istinad və arqument təqdim etməli, ortaq nailiyyət hissini gücləndirməlidirlər.

## QIYMƏTLƏNDIRMƏ VƏ REFLEKSIYA

### MÜZAKIRƏ (~10 DƏQ.)

Fəaliyyətdən sonra müəllim verilən dezinformasiya nümunələri, şagirdlərin əldə etdiyi nəticələr və fəaliyyəti yerinə yetirərkən qarşılaşdıqları çətinliklərlə bağlı müzakirəyə imkan yaradır. Müzakirəni yönləndirmək üçün aşağıdakı suallar təklif olunur:

- Nümunə haqqında nə öyrəndiyinizi bizə deyin: yerləşdirildiyi veb-sayt, mətnin müəllifi, nümunədəki illüstrasiyalar (əgər varsa), məqalənin məzmunu, məqalədə qeyd olunan insanlar, yerlər və hadisələr.
- Hansı mənbələrdən nəyə görə istifadə etdiniz?
- Dostunuza bu veb-saytdakı, sosial media qrupundakı məlumatı oxumağı tövsiyə edərdiniz? Niyə?
- Verilən nümunəni təhlil edərkən hansı çətinliklərlə qarşılaşdınız?

### REFLEKSIYA (~10 DƏQ.)

Şagirdlərdən aşağıdakı sualları qısaca cavablandırmaqla fəaliyyətlə bağlı təcrübələrini ümumiləşdirməyi istəmək olar (həmçinin rəylərini müxtəlif vərəqlərə yazmaq istənilə bilər):

- Fəaliyyət zamanı özümü necə hiss etdim?
- Bu tapşırığı daha yaxşı yerinə yetirmək üçün mənə hansı bilik/bacarıqlar kömək edə bilərdi?
- Hansı çətinliklərlə qarşılaşdım?
- Bu tapşırığı yerinə yetirərkən nəyi bəyəndim?
- Verilən nümunəni təhlil edərkən hansı çətinliklərlə qarşılaşdınız?

### NÖVBƏTI ADDIM (EV TAPŞIRIĞI)

Ev tapşırığı kimi şagirdlər qohum və ya dostlarının ən çox hansı veb-sayt və ya sosial media qruplarını nəzərdən keçirdiklərini öyrənməyə və müqayisəli oxu metodundan istifadə edərək orada olan məlumatların etibarlılığını təhlil etməyə dəvət edilə bilərlər.

## FIKIR VƏ IDEYALARINIZI ƏLAVƏ EDƏCƏYINIZ SAHƏ



# 2. Kütləvi informasiya vasitələri ilə əhatə olunmaq: gündəlik həyatda informasiya obyektlərinin rolu

UNESCO və dünyanın digər tanınmış ekspertlərinin fikrincə, savadlılıq media və onun daxilində gedən prosesləri anlamaq, təhlil etmək, şərh etmək, yaratmaq və onlarla kommunikasiyada olmaq məqsədilə məlumat və datadan istifadəni əhatə edən müxtəlif qabiliyyətlər məcmusudur. Media savadlılığını ən az üç növ "alətdən" səmərəli istifadə edərək artırmaq mümkündür: bilik (necə düşündüyümüzü bilmək), hissləri (necə hiss etdiyimizi) tanımaq bacarığı və hərəkətə keçmək bacarığı.

İnternet axtarış mexanizmləri və şəxsi sosial media hesabları kimi texnologiyaların təklif etdiyi alət və tətbiqlərdən istifadə qabiliyyəti aydın bacarıq göstəricisidir. Eyni zamanda, kontenti və insanın proqresini anlamaq, təhlil etmək və qiymətləndirmək istəyi epistemik bilik və təcrübəyə aid edilir. Beləliklə, media savadlılığının inkişaf etdirilməsi faktları yoxlamaq, onlayn alətlər seçmək, etibarlı mənbə axtarmaq, jurnalistikanın nə olduğunu anlamaq və digər bu kimi biliklərdən daha çoxunu əhatə edir. Burada sadalananları istifadə və tətbiq etmək lazımdır: keyfiyyətli jurnalistikanı davamlı olaraq izləmək və oxumaq, sosial media postlarını təhlil etmək, etibarsız və təsdiqlənməmiş məlumatları yaymamaq və paylaşmamaq.

Göründüyü kimi, **savadlılıq** anlayışını şərh etmək və belə bir nəticəyə gəlib çatmaq üçün insanın informasiya ilə təcrübəsi üzərində analitik və tənqidi düşünməsi çox vacibdir. Tənqidi düşüncənin mahiyyəti məhz bundan ibarətdir. Beləliklə, media dəstəkli məlumatlılıq bu üç addımın məcmusunda özünü göstərir: məlumat haqqında düşünmək, onu dəyərləndirmək və təcrübədən keçirmək; baş verənləri tanımaq və dəyərləndirmək; yeni düşüncə əldə etmək və növbəti addımı atmaq.

## DƏRSIN MÖVZUSU

**İnformasiya və media obyektlərinin gündəlik həyatda rolu**

## SINIF

9–12

## BU DƏRS PLANININ INTEQRASIYA EDILƏ BILƏCƏYI FƏNLƏR

Ana dili dərsləri (Litva, Latış, Estoniya), İngilis və ya digər xarici dillər, tarix, coğrafiya, həyat bilgisi, informasiya texnologiyaları (İT) və ya qeyri-formal təhsil fəaliyyəti.

DƏRSLƏR ÜÇÜN NƏZƏRDƏ TUTULMUŞ FƏALIYYƏTLƏR

# 2. Kütləvi informasiya vasitələri ilə əhatə olunmaq: gündəlik həyatda informasiya obyektlərinin rolu

## DƏRSIN MƏQSƏDI

Məktəb, şəhər və ya digər mühitlərdə, mediada və ya onlayn rejimdə informasiya obyektlərini müşahidə etmək və anlamaq bacarığını inkişaf etdirmək. Bu yanaşma passiv müşahidədən ətraf mühitdəki ipucu və mənaları, habelə müxtəlif məlumat formalarını şərh edən aktiv müşahidəyə keçməyi tələb edir.

## ÖYRƏNMƏ MƏQSƏDLƏRI

1. Ətraf mühitdə informasiya obyektlərini müəyyən etmək və onların mənasını daha geniş media kontekstində anlamağa çalışmaq.
2. İnformasiya mühiti haqqında tənqidi düşünmək bacarığını inkişaf etdirmək.

## TƏTBIQ EDILƏN FƏALIYYƏT

İnteraktiv metod olan "Media gəzintisi" ("asta öyrənmə" yanaşması)

**Asta öyrənmə** strategiyası iştirakçılara ətraf mühit, oradakı hadisə və obyektlər haqqında öyrənmək, onları müşahidə etmək və əks etdirmək üçün daha çox vaxt sərf etməyə imkan verən tapşırıq və metodlardan istifadəni nəzərdə tutur.

Məlumatlılığı artırmaq üçün az vaxtımızın olduğu sürətli informasiya əsrində yaşayırıq. Buna görə də bu öyrənmə strategiyası bizə dayanmaq, mövcud mühit və ya oradakı obyektlərin hansı hiss, düşüncə və refleksiyaları tətiklədiyini anlamağa çalışmaq imkanı verir.

## MÜDDƏT

45 dəq. (fəaliyyət həmçinin iki dərsə/90 dəqiqəyə qədər uzadıla bilər).

## TƏLƏB EDILƏN MATERIALLAR

1. Ətraf mühitdəki işarələri anlamaq üçün: şəhərin/ərazinin xəritəsi (məktəbdən kənardadırsa) (daha böyük binanın planı ola bilər), noutbuklar, qələmlər və smartfonlar.
2. Seçilmiş media formatında təcrübə üzrə refleksiya üçün (ev tapşırığı): qrup tərəfindən hazırlanmış iş (media məhsulu) foto-povest (izahlar/sitatlar, qeydlər, rəsm ilə birlikdə fotolar) ola bilər. Tapşırıq növbəti dərsə hazırlıqdırsa, podkast, video və bütün yaradıcı üsullardan istifadə edilə bilər.

# 2. Kütləvi informasiya vasitələri ilə əhatə olunmaq: gündəlik həyatda informasiya obyektlərinin rolu

## STRUKTUR/FƏALIYYƏT

## TƏQDIMAT (~5-10 DƏQ.)

1. Şagirdlər sualları müzakirə etmək üçün cütlük və ya kiçik qruplar şəklində işləyirlər:

- Media sizin üçün nə ifadə edir?
- Nəyi informasiya obyekti hesab edirsiniz?

Müasir kontekstlərdə "vasitə" və ya "media" sözü təkcə mətbuat, radio və televiziya kimi ənənəvi media növlərinə deyil, həm də bütün informasiya və kommunikasiya vasitələrinə, informasiya kontentinin ötürülməsi və yerləşdirilməsi vasitələrinə deyilir. Media fotoqrafiya, kino və internet ola bilər. Adi insanlardan tutmuş siyasət, biznes, elm, idman sahəsində olan insanlara və populyar mədəniyyət xadimlərinə qədər hər kəs sosial mediadan fəal şəkildə istifadə edir. Media incəsənət (media sənəti) yaratmaq üçün istifadə edilə bilər.

İnformasiya obyektləri çox müxtəlif olmaqla həm fiziki, həm də rəqəmsal formada mövcuddur. Onlar məlumatları çatdırmaq, ötürmək və ya saxlamaq üçün istifadə edilir. Afişalar, reklam lövhələri və işarələr kimi maddi nəsnələrdən tutmuş kompüter və video kameralardan ibarət rəqəmsal əşyalara qədər bu obyektlərin hər biri özünəməxsus rolu və funksiyası ilə məlumat mühitimizi təşkil edir.

2. İnteraktiv "Media gəzintisi" fəaliyyəti şagirdlərə izah edilir:

- Şagirdlər dərsin məqsəd və hədəfləri ilə tanış olurlar.
- Şagirdlər cütlük və ya kiçik qruplar şəklində marşrut seçirlər (məktəbin daxilində, həyətində və ya sinif otağında ola bilər).

# 2. Kütləvi informasiya vasitələri ilə əhatə olunmaq: gündəlik həyatda informasiya obyektlərinin rolu

Bu mühitdə məktəbdəki müxtəlif "işarələri", yəni obyektləri, mesajları və insan gözü ilə görünən və görünməyən əşyaları, məsələn, kameraları, telefonları, afişaları, şəkilləri, stikerləri, kitabları və digər informasiya obyektlərini axtarır və sənədləşdirirlər.

- Tapşırıq üzərində işlədikdən sonra şagirdlər rollara bölünürlər (marşrut planlayıcısı, yazıçı, fotoqraf, dizayner, jurnalist və s.). Rollar birləşdirilə bilər, yəni bir şəxsin bir neçə tapşırığı ola bilər.

## QRUP IŞI (~20 DƏQ.)

- Marşrut planlaşdırıldıqdan sonra (başlama, planlaşdırılan dayanacaqlar, bitiş) bütün qruplar nəzərdə tutulan istiqamətlər üzrə hərəkət edirlər. "İşarələrin mənasının açılması" adlı material şagirdlərə köməkçi material kimi təqdim edilə bilər.
- "İşarə" (media və ya informasiya obyekti) aşkar etdikdən sonra onu "oxumaq" üçün vaxt ayırırlar: müzakirə edilir, çəkilir (foto), şərh edilir, araşdırılır və ya müsahibə verilir.

**"İşarələrin mənasının açılması" materialı:** qruplar tərəfindən müzakirə ediləcək suallar:

Ətraf mühiti necə təsvir edərdiniz? Sakit, səs-küylü, mehriban, aqressiv, yoxsa dominant? Bunu göstərən işarələr (media və informasiya obyektləri) hansılardır? Məsələn, elan lövhəsində çoxsaylı müxtəlif mesajlar görə bilərsiniz; bəzi mesajlar xoş və cəlbedici ola bilər (məsələn, debat klubuna qoşulmaq üçün dəvət), digərləri isə daha aqressiv ola bilər (məsələn, məktəb ərazisinə zibil atmamaqla bağlı təlimatlar).

Media və informasiya obyektində nələr görünür, nələr görünmür? Məsələn, seçilmiş informasiya obyekti "surətçıxarma maşını"dırsa, o, hansı məlumatları toplayır, məlumatları kim arxivləşdirir və saxlayır, məqsədi nədir, nə üçün istifadə olunur və s.

# 2. Kütləvi informasiya vasitələri ilə əhatə olunmaq: gündəlik həyatda informasiya obyektlərinin rolu

## QIYMƏTLƏNDIRMƏ VƏ REFLEKSIYA

### MÜZAKIRƏ (~10 DƏQ.)

- Bu təcrübədən nə cür hekayə yarada bilərsiniz? Media ətraf mühit və seçimlərimizə necə təsir edir?
- Bu hekayəni (təcrübənizi) danışmaq üçün hansı media məhsulu formatını seçirsiniz? Niyə?

### REFLEKSIYA (~10 DƏQ.)

Şagirdlərdən aşağıdakı sualları qısaca cavablandırmaqla fəaliyyətlə bağlı təcrübələrini ümumiləşdirməyi istəmək olar (həmçinin rəylərini müxtəlif vərəqlərə yazmaq istənilə bilər):

- Fəaliyyət zamanı özümü necə hiss etdim?
- Bu tapşırığı daha yaxşı yerinə yetirmək üçün mənə hansı bilik/bacarıqlar kömək edə bilərdi?
- Hansı çətinliklərlə qarşılaşdım?
- Bu tapşırığı yerinə yetirərkən nəyi bəyəndim?

## NÖVBƏTI ADDIM (EV TAPŞIRIĞI)

Şagirdlər prezentasiya hazırlayırlar. Qrup tərəfindən yaradılan layihə (media məhsulu) foto-povest (izahlar/sitatlar, qeydlər, rəsm ilə birlikdə fotolar) ola bilər. Tapşırıq növbəti dərsə hazırlıqdırsa, bütün yaradıcı üsullardan istifadə etmək mümkündür; podkast, video, afişa və s. ola bilər.

## FIKIR VƏ IDEYALARINIZI ƏLAVƏ EDƏCƏYINIZ SAHƏ



# 3. Qərəzli düşüncə: nəyə görə təhlükəlidir?

Dixotom düşüncə tərzinə meyilliyik, yəni hər şeyi ağ-qara, yaxşı və ya pis kimi görürük. Özümüzü "ağ" tərəfdə görürük və bu "ağ" prizmadan başqalarını görür, mühakimə edirik. Bu, adətən, düşünmədən formalaşan, gündəlik həyatı asanlaşdıran düşüncə meylidir (dərin düşünməyə və enerji sərf etməyə ehtiyac qalmır). Bu, həm də müdafiə mexanizmidir. Buna görə də yüksək qeyri-müəyyənlik şəraitində dixotom düşüncə tərzi xüsusilə üstünlük təşkil edir.

Beyin vəziyyətin təhlükəli olub-olmadığını, qarşısındakı insanın dost və ya düşmən olduğunu bildikdə dinclik tapır. Lakin bu düşüncə tərzi riskli də ola bilər. Dixotom düşüncə cəmiyyətin qütbləşməsini sürətləndirən amildir. O, bizi incə şəkildə münaqişə və nifrət nitqinə doğru sürükləyir, çox vaxt parçalayıcı ünsiyyət, habelə nifrət və sui-istifadəni təbliğ edən hərəkatlərlə nəticələnir.

Reallıq ağ-qara deyil. Reallıq bozun fərqli çalarlarıdır. Sürətli cavab qütbləşmiş cavab deməkdir, tənqidi düşüncə isə boz sahədən başlayır.

Bu bozluq çətin, daha çox zehni səy tələb edən və qeyri-müəyyənliyi artıran tənqidi düşüncənin əlamətidir. Lakin özümüzü qeyri-müəyyənliyi və boz sahəni (ağ və qara arasında) ələ almağa öyrəşdirə bilərik.

Tənqidi düşüncə kimliyini itirmədən başqa perspektivi mənimsəməkdir. Şüurlu şəkildə düşünmək tənqidi düşüncənin qızıl qaydalarından biridir. Buna görə də cəsarətli olmalı və indiyə qədər bizə xoş gələn, məşhur olan və etibar edilən mənbə və ya şəxsləri sorğulamalıyıq. Gəlin özümüzə bu sualı verək: bununla bağlı fakta əsaslanan sübutum varmı? Bəlkə də, beləcə anlayacağıq ki, "ağ" hesab etdiyimiz mövzuların rəngi əslində "boz"dur.

## DƏRSIN MÖVZUSU

**Dezinformasiyanın təsiri ilə fikirlərin bölünməsi (qütbləşməsi) və cəmiyyətin parçalanması.**

## SINIF (IL)

9–12

# 3. Qərəzli düşüncə: nəyə görə təhlükəlidir?

## BU DƏRS PLANININ INTEQRASIYA EDILƏ BILƏCƏYI FƏNLƏR

Ana dili dərsləri (Litva, Latış, Estoniya), İngilis və ya digər xarici dillər, tarix, coğrafiya, həyat bilgisi, informasiya texnologiyaları (İT) və ya qeyri-formal təhsil fəaliyyəti.

## DƏRSIN MƏQSƏDI

Dərs şagirdləri müxtəlif məsələ və ya aktual problemləri əhatə edən fikirlərin bölünməsi (qütbləşmə iki əks qütbdə qruplaşma deməkdir) ilə tanış etmək məqsədi daşıyır. Aktual məsələ ortaya çıxanda qruplara bölünməyin cəmiyyəti iki yerə ayırdığını, iki "düşərgə"nin meydana çıxdığını və fikirlərin qütbləşdiyini anlamaqda şagirdlərə kömək etmək nəzərdə tutulur. Bunun dezinformasiyanın nəticəsi ola biləcəyini izah etmək. Ən əhəmiyyətli təsirlərdən biri mövqe, münasibət və hətta dəyərlərin qütbləşməsidir.

## ÖYRƏNMƏ MƏQSƏDLƏRI

1. İnformasiya, dezinformasiya və onların cəmiyyətə təsirinin əsas anlayışlarını təqdim etmək.
2. Məsələlərin incəliklərini dərk etmək və sadə mühakimələrdən uzaqlaşmaq üçün mühüm vasitə olan "Fikirlərin bölünməsi" metodunu dərindən dərk etmək.
3. Tapşırıqlar kontekstində müzakirə olunan məsələnin və ya mövzunun bu və ya digər şəkildə dəyərləndirilməsinə gətirib çıxaran səbəbləri anlamaq.
4. Yalnız "qara" və ya "ağ", "yaxşı" və ya "pis" baxımından mühakimə yürütməyin risklərini və bu cür mühakimələrin dezinformasiyaya və anlaşılmazlığa gətirib çıxarma potensialını dərk etmək.
5. Dezinformasiyanın təhlükələrini və etibarlı məlumat mənbəyinin əsaslarını anlamaq və şərh edə bilmək.
6. Şagirdlərin dərsdən nə anladıqlarını, nəyi bəyəndiklərini, nəyin ən dəyərli və nəyin çətin olduğunu müəyyən edərək təcrübəni ümumiləşdirmək və əks etdirmək.

## TƏTBIQ EDILƏN FƏALIYYƏT

İnteraktiv fəaliyyət olan "Fikirlərin bölünməsi" ("qara" və ya "ağ" testi)

# 3. Qərəzli düşüncə: nəyə görə təhlükəlidir?

## MÜDDƏT

1–2 saat (şagirdlərin sayından və hər sual üzrə nə qədər detalın olduğundan asılı olaraq).

## TƏLƏB EDILƏN MATERIALLAR

- Müəllim üçün: prezentasiya, əvvəlcədən hazırlanmış suallardan ibarət material.
- Şagirdlər üçün: qələm və kağız (vərəqlərin sayı şagirdlərin sayından asılıdır) və ya internet bağlantısı olan smartfon.

## TAPŞIRIĞI UYĞUNLAŞDIRMAĞIN MÜMKÜN YOLLARI

Bütün şagirdlərin internet bağlantısı olan smartfonları varsa, tapşırıq Slido, Mentimeter və s. kimi canlı sorğu tətbiqlərindən istifadə etməklə anonim şəkildə yerinə yetirilə bilər. Lakin müəllim bundan əmin olmalı və əvvəlcədən hazırlaşmalıdır. İnternet bağlantısı olan mobil telefonların lazım olacağı barədə şagirdləri əvvəlcədən xəbərdar etmək olar.

## HAZIRLIQ

Sualları kağıza yazın (məsələn, 10 sual), hamısı "... haqqında nə düşünürsünüz?" ifadəsi ilə yekunlaşmalıdır. Məsələn:

- Qlobal istiləşmə haqqında nə düşünürsünüz?
- Ölkənizdəki təhsil sistemi haqqında nə düşünürsünüz?
- TikTok tətbiqi haqqında nə düşünürsünüz?
- ...

və s. (sessiya günü aktual olan sualları daxil etmək və şagirdlər üçün həssas olan suallardan yayınmaq məsləhətdir).

## STRUKTUR/FƏALIYYƏT

### TƏQDIMAT (~10-15 DƏQ.)

1. İnformasiya, dezinformasiya və onların cəmiyyətə təsiri kimi əsas anlayışları qısaca müzakirə etmək.

İnformasiyanın cəmiyyətə və ya fərdi şüura təsiri onilliklər boyunca psixologiya, sosiologiya və ya antropologiya kimi müxtəlif intizam xarakterli perspektivlərdən tədqiq edilib.

Dezinformasiyanın cəmiyyətə təsirini müəyyən etmək bu ünsiyyət formasını araşdıran tədqiqatçılar üçün ən mühüm problemlərdən biridir. Sosial sorğu, təcrübə, sosial mediadan əldə edilən data və ya insanların təbii mühitdə müşahidə edilməsinin üstünlükləri və mənfi cəhətləri olsa da, əsas mənfi cəhətlərdən biri tədqiqatçının yekun nəticələrdə pay sahibi olmasıdır. Qeyd etmək lazımdır ki, dezinformasiyanın insanlara təsiri müxtəlifdir, yəni qavrayış, münasibət, inanc və ya fikirlərə olan təsir, habelə bu təsirlərin yaratdığı davranışlar müxtəlif ola bilər. Bu, insanların təhsil, sosial, iqtisadi, demoqrafik və ya psixoloji vəziyyətin təsiri altında manipulyativ ünsiyyətə dayanıqlılığından asılıdır.

2. Şagirdlər "Fikirlərin bölünməsi" ("qara" və ya "ağ" test) adlı interaktiv fəaliyyət və bu dərsin məqsədi ilə tanış olurlar.

## QRUP IŞI (~30-40 DƏQ.)

- Auditoriyaya sualın yalnız bir hissəsi olan slayd göstərilir: "... haqqında nə düşünürsünüz?" Vizuallaşdırma üçün qaradan ağa qədər müxtəlif rəng və çalarlardan ibarət spektri əks etdirən slayd tövsiyə olunur. Məsələn:




- Daha sonra bütün hazırlanmış suallar ucadan oxunur və şagirdlər cavablarını vərəqlərə yazırlar.
- Şagirdlər bütün suallara cavab verdikdən sonra birinci sual oxunur və hər şagird öz cavabını ucadan oxuyur. Müəllim müsbət (yaxşı) və mənfi (pis) ilə əlaqəli cavabları müəyyən etməyi hədəfləyir.

Auditoriyadan müzakirə olunan məsələ ilə bağlı fikirlərini slaydda haraya "yerləşdirəcəklərini" bildirmələrini istəmək tövsiyə olunur. Tutaq ki, auditoriya mərkəzə yerləşdirməyə meyillidir (praktikada olduqca nadir haldır), lakin cavab öz məna və ya konnotasiyasında aydın şəkildə "ağ" və ya "qara"dır. Bu halda, fikri daha da qütbləşdirmək üçün onlardan bir söz təqdim etmələrini istəmək tövsiyə olunur.

# 3. Qərəzli düşüncə: nəyə görə təhlükəlidir?

**Qeyd.** Bu tapşırıqda auditoriyanın fikirləri fərqli ola bilər ki, bu da qarşıdurmaya səbəb ola bilər. Buna görə də müəllim(lər) auditoriyanı idarə etməlidir(lər). Fikir ayrılığı olduqda cəmiyyətdə müxtəlif fikirlərin təbii şəkildə mövcud olduğunu vurğulamaq və lazım gələrsə, fərqli tərəfdən baxan iki şəxsin fərqli rəqəm gördükləri ilə bağlı slayd göstərmək olar: 6, yoxsa 9.

- Cavablar məlum olduqdan sonra auditoriyaya "Bu fikri sizdə kim formalaşdırıb?" və "Məlumat mənbəyi kimdir?" sualı verilir. Bir səbəb (maksimum üç) yazın.

## QIYMƏTLƏNDIRMƏ VƏ REFLEKSIYA

## MÜZAKIRƏ (~15 DƏQ.)

- Bu təcrübədən nə öyrəndiniz?
- Aldığımız məlumat fikir və mühakimələrimizə necə təsir edir?
- Nəyə görə cəmiyyətin müxtəlif üzvlərinin fikirləri fərqli olur?
- Dezinformasiya əsasında formalaşan rəy nə dərəcədə təhlükəlidir?
- Nəyə görə hər şeyi yalnız "qara" və ya "ağ", "yaxşı" və ya "pis" kimi qiymətləndirmək təhlükəlidir? Bu cür mühakimələri nə təşviq edir?
- Etibarlı məlumat mənbəyinə istinad etmək nə üçün vacibdir? Etibarlı məlumat mənbəyi nədir?

## REFLEKSIYA (~10 DƏQ.)

- Nəyi bəyəndiniz?
- Çətinlik nədə idi?
- Nəyi anlamaq çətin idi?
- Ən yaddaqalan məqam nə oldu?

## FIKIR VƏ IDEYALARINIZI ƏLAVƏ EDƏCƏYINIZ SAHƏ



# 4. İnformasiya axtarışı: qeyri-müəyyən şəraiti necə idarə edə bilərik?

Dezinformasiya, saxta xəbərlər və ya təbliğat kimi manipulyasiya və məlumat pozuntuları insanların ən həssas olduğu böhran və qeyri-müəyyənlik anlarında daha da üstünlük təşkil edir. İnsanlarda gələcəyi idarə etmək üçün şüuraltı istək olur və qeyri-müəyyənlik gələcəyin proqnozlaşdırılmasını mürəkkəbləşdirən naməlum məqamlarla əlaqələndirilir. Bu cür şərtlər altında qorxu və narahatlıq hiss etməyə, media və sosial mediada cavablar axtarmağa başlayırıq. "Gələcəyi anlamağımıza" kömək edən istənilən məlumatı qəbul edir, beləcə nəzarəti bərpa edirik. Təəssüf ki, bu, əsasən, dezinformasiyadan ibarət olur. Tez meydana çıxır və faktlara əsaslanmır. Bu cür dezinformasiyaya uymağın nəticələri ağır ola, yanlış qərarlara gətirib çıxara bilər ki, bununla da qeyri-müəyyənlik dövrü daha da uzanar.

Vacib qərarlar qəbul edərkən (məsələn, sağlamlıq, maliyyə, təhlükəsizlik və ya siyasət ilə bağlı) mövcud məlumatlara, şəxsi və kollektiv seçimlərə əsaslanırıq. Buna görə də cəmiyyətdə yeni və ya həssas məsələ ortaya çıxanda yaranan dezinformasiyaya diqqət yetirmək vacibdir.

Üstəlik, ilk növbədə emosiyalarımızla reaksiya veririk və cavab axtararkən bir çox koqnitiv səhvlərə yol veririk. Nəticədə qeyri-müəyyənliyi yalnız bəzi hallarda azaldırıq (çox vaxt isə daha da artırırıq).

Məsələn, inanc və fikirlərimizi təsdiq edən məlumatlar axtarırıq; ilk növbədə aşkar olana diqqət yetiririk; internetdə və ya sosial mediada asanlıqla əldə edilə bilən, lakin mütləq şəkildə etibarlı olmayan məlumatlara əsaslanırıq; ilk bizə çatan məlumat əsasında fikirlərimizi formalaşdırmağa öyrəşirik və sonra onları dəyişdirməkdə çətinlik çəkirik və s. Qərar verərkən emosiyaların rolunu anlamaq əldə etdiyimiz məlumatlara daha tənqidi yanaşmaq üçün çox vacibdir.

Buna görə də mənbəni oxuyarkən özünüzə aşağıdakı sualları verin: 1) Bu məlumat nəyə görə mənim üçün vacib olmalıdır? 2) Məndə hansı hissləri oyadır? 3) Nəyə görə bu cür reaksiya verirəm? 4) Mesajın müəllifi kimdir? 5) Mesajda arqumentlər var, yoxsa sadəcə fikirdən ibarətdir?

## DƏRSIN MÖVZUSU

**Qeyri-müəyyənlik zamanı emosiyalar, davranışlar və məlumat axtarışı.**

## SINIF (IL)

9–12

# 4. İnformasiya axtarışı: qeyri-müəyyən şəraiti necə idarə edə bilərik?

## BU DƏRS PLANININ INTEQRASIYA EDILƏ BILƏCƏYI FƏNLƏR

Ana dili dərsləri (Litva, Latış, Estoniya), İngilis və ya digər xarici dillər, tarix, coğrafiya, həyat bilgisi, informasiya texnologiyaları (İT) və ya qeyri-formal təhsil fəaliyyəti.

## DƏRSIN MƏQSƏDI

Şagirdləri əhəmiyyətli hadisələrdən/situasiya dəyişikliklərindən və ya böhranlardan sonra yaranan qeyri-müəyyənliklərlə tanış etmək.

## ÖYRƏNMƏ MƏQSƏDLƏRI

1. "Qeyri-müəyyənliyi anlamaq" metodu və onun məqsədi ilə tanış olmaq.
2. İstənilən qeyri-müəyyən vəziyyətdə özünü necə hiss etdiyini, necə davrandığını, məlumatı harada və nə üçün axtardığını anlamaq və müəyyən edə bilmək.
3. Şagirdlərin dərsdən nə anladıqlarını, nəyi bəyəndiklərini, ən çox nəyi yadda saxladıqlarını və nəyin çətin olduğunu müəyyənləşdirərək təcrübəni ümumiləşdirmək və əks etdirmək.

## TƏTBIQ EDILƏN FƏALIYYƏT

"Qeyri-müəyyənliyi anlamaq" adlı interaktiv fəaliyyət.

## MÜDDƏT

1 saat.

## TƏLƏB EDILƏN MATERIALLAR

Böyük vərəqlər, rəngli markerlər (proyektor da ola bilər).

## HAZIRLIQ

Bir neçə cümlə ilə kritik hadisəni əks etdirən hipotetik vəziyyəti təsvir edin. Bu, milli hadisə (məsələn, kütləvi şəkildə məktəblərə göndərilən gizli partlayıcı maddələr haqqında yalan e-məktublar) və ya regional hadisə (fəaliyyətin baş verdiyi yerdən asılı olaraq) ola bilər (məsələn, zorakılıq və ya təcavüz hadisəsi, yaxud məktəbdə narkotiklərin aşkarlanması).

## TAPŞIRIĞI UYĞUNLAŞDIRMAĞIN MÜMKÜN YOLLARI

Hipotetik hadisə cəlbetməni artırmaq üçün infoqrafik simvollardan və prezentasiya effektlərindən istifadə etməklə vizuallaşdırıla bilər. Alternativ olaraq, suallara verilən cavablar Slido və ya Mentimeter kimi canlı sorğu tətbiqlərindən istifadə etməklə təqdim edilə bilər. Bununla anonimlik təmin edilir, habelə şəffaflıq və auditoriya interaksiyasının artırılmasına ümid edilir. Lakin internet bağlantısı təmin edilməli və şagirdlərdə internet bağlantısı olan smartfonlar olmalıdır.

## STRUKTUR/FƏALIYYƏT

## TƏQDIMAT (~5-10 DƏQ.)

Şagirdlər "Qeyri-müəyyənliyi anlamaq" adlı interaktiv fəaliyyət və dərsin məqsədi ilə tanış olurlar.

## QRUP IŞI (~30-40 DƏQ.)

- Şagirdlər situasiya ilə tanış olurlar. Bunu ucadan oxumaq və ya slaydda təqdim etmək olar.
- Daha sonra suallar verilir və şagirdin cavabları hər bir sual üçün ayrılmış böyük vərəqdə qeyd olunur:

1. Bu vəziyyətdə necə hiss edirsiniz? Niyə?

   **Birinci sual** emosiyaları əhatə etməli və bu emosiyaların səbəblərini axtararkən qeyri-müəyyənliyə gətirib çıxaran məlumat çatışmazlığına istinad etməlidir.

   Qeyri-müəyyənlik hissini/vəziyyətini müzakirə etmək tövsiyə edilir (auditoriya sonuncu dəfə nə vaxt bu cür hiss edib/bu halda olub və s.).

2. Bu vəziyyətdə nə edirsiniz? Niyə?

   **İkinci sualda** müəllim auditoriyanı hərəkətə keçmək üçün tez, aydın və başa düşülən məlumatın vacibliyinə inandırmağa çalışır.

3. Məlumatı harada axtaracaqsınız? Niyə?

   **Üçüncü sualda** şagirdlər informasiya mənbələrinin səriştəsini qiymətləndirməyə və tənqidi təfəkkürə dəvət edilir. Auditoriyaya rəsmi məlumatların əlçatan olmadığı hipotetik vəziyyət təqdim edilir və saxta ekspertlər sosial şəbəkələrdə məsləhətlər verirlər. Bu sualda məlumat mənbəyinin səriştəsinə və bu səriştənin qiymətləndirilməsinə (ekspertlərin mövqeyi, təhsili, təcrübəsi və s.) diqqət yetirilməli, şagirdlərə əsaslı qərarlar qəbul etmək imkanı verilməlidir.

# QIYMƏTLƏNDIRMƏ VƏ REFLEKSIYA

## MÜZAKIRƏ (~10 DƏQ.)

- Bu təcrübədən nə öyrəndiniz?
- İnsanlar qeyri-müəyyənlik zamanı necə reaksiya verirlər və bunun səbəbi nədir?
- Nəyə görə qeyri-müəyyənlik şəraitində dezinformasiya faktiki məlumatdan daha tez yayılır?
- İnformasiya mənbəyinin səriştəsini nə müəyyən edir?

İnsanın qeyri-müəyyənliyə təbii reaksiyası tez, aydın və başa düşülən məlumatlara əsaslanır. Qeyri-müəyyənliyə verilən bu reaksiya təhlükənin miqyasını, onun hər bir fərdə necə təsir edəcəyini və insanın özünü necə qoruyacağını bilmək istəyindən irəli gəlir. Qeyri-müəyyənliyin azaldılması nəzarəti bərpa etmək istəyindən ibarətdir. Dezinformasiya faktları qiymətləndirmək və ya vəziyyəti araşdırmaq üçün vaxt tələb etmədiyinə görə böhran və ya əhəmiyyətli hadisələr zamanı qeyri-müəyyənliyi sanki aradan qaldırdığı üçün "dəyər" qazanır.

## REFLEKSIYA (~10 DƏQ.)

- Nəyi bəyəndiniz?
- Çətinlik nədə idi?
- Nəyi anlamaq çətin idi?
- Ən yaddaqalan məqam nə oldu?

## FIKIR VƏ IDEYALARINIZI ƏLAVƏ EDƏCƏYINIZ SAHƏ



# NƏTİCƏ: DAHA SONRA NƏ ETMƏLİ?

Bu gün mətbuatda yayılan məlumatlar xaotikdir. Bu məlumatlar yüksək səviyyədə etibarlı olan, ekspertlər tərəfindən yaradılan məlumatlardan, eyni zamanda cəmiyyəti təhdid edə biləcək manipulyasiyalardan ibarətdir. Yaxşı xəbər budur ki, bir az səylə hər birimiz tənqidi düşüncə, rəqəmsal dezinformasiyaya dayanıqlılıq və keyfiyyətli kontenti ayırd etmək bacarığını inkişaf etdirə bilərik. Buna görə də sizi media və informasiya savadlılığı haqqında biliklərinizi dərinləşdirməyə, habelə dəyərli resurs və alətlərimizi təcrübədə tətbiq etməyə dəvət edirik.

# FAYDALI LINKLƏR VƏ RESURSLAR


- DIGIRES. (2020). Rəqəmsal və dayanıqlı vətəndaşlığın yaradılması: Siyasət təlimatları. Available from: https://digires.lt/wp-content/uploads/2023/02/D1.5_Policy-suggestions.pdf
- DIGIRES. (2020). Məlumatlı müzakirə və rəqəmsal çağ: Media mətnlərinin keyfiyyəti məsələsi. Available from: https://digires.lt/wp-content/uploads/2023/02/D1.5_Policy-suggestions_DQI.pdf
- DIGIRES. (2020). Baltikyanı araşdırma fondunun tədqiqat fəaliyyətləri haqqında hesabat. Available from: https://digires.lt/wp-content/uploads/2023/02/D1.3_Report-on-research-activities.pdf
- IREX. (n.d.). Onlayn media savadlılığı kursu TAM YOXLAMADAN KEÇİB. Available from: https://veryverified.eu/

# BECID HAQQINDA

Dezinformasiya Problemi ilə Mübarizə üzrə Baltikyanı İnteraksiya Mərkəzi (BECID) Estoniya, Latviya və Litvada dezinformasiya ilə mübarizə və media savadlılığını təşviq edən, faktların yoxlanılması, media savadlılığı, media təcrübəsi və akademik tədqiqatlar üzrə ekspertlər şəbəkəsidir. BECID əsas diqqəti faktların müntəzəm yoxlanılmasına, dezinformasiyanın anlaşılmasına dair araşdırmalara, habelə informasiya dayanıqlılığı və media savadlılığını artırmaq məqsədi daşıyan media savadlılığı kampaniyalarına yönəldir. BECID Avropa Rəqəmsal Media Rəsədxanası (EDMO) şəbəkəsinin bir hissəsidir.

BECID fəaliyyətləri və hazırlanan kontent haqqında ətraflı məlumat üçün bu ünvana daxil olun: www.becid.eu.

# DIGIRES HAQQINDA

Rəqəmsal Dayanıqlılıq üzrə Baltikyanı Araşdırma Mərkəzi olan DIGIRES təkcə Litvada deyil, həm də Baltikyanı ölkələrin hər üçündə rəqəmsal dayanıqlılıq sahəsində əməkdaşlığın ilk nümunəsidir. DIGIRES media savadlılığı, rəqəmsal dayanıqlılıq və davamlı demokratiyanın inkişafı kimi oxşar mövzular üzərində işləyən ekspertləri bir araya gətirmək, habelə müxtəlif sektorları təmsil edən milli təşkilatlar, qurumlar və dövlət orqanları arasında razılaşmalar və əməkdaşlıq vasitəsilə dayanıqlılığın yeni formalarını taparaq ardıcıl və məqsədyönlü şəkildə dayanıqlılığın inkişaf etdirilməsi yollarını göstərmək məqsədi daşıyır.

DIGIRES fəaliyyətləri və hazırlanmış kontent haqqında ətraflı məlumat üçün daxil olun: https://digires.lt/en/.

# MÜƏLLIFLƏR VƏ TÖHFƏ VERƏNLƏR



## Auksė Balčytienė

DIGIRES assosiasiyasının rəhbəri və baş elmi işçisi. Böyük Vitovt Universitetində İctimai Kommunikasiya Departamentinin professoru, UNESCO-nun İnklüziv və Bilik Cəmiyyəti üzrə Media və İnformasiya Savadlılığı Kafedrasının rəhbəri.



## Aistė Meidutė

Jurnalist, fakt yoxlayıcı, DELFI xəbər portalının "Yalan detektoru" layihəsinin redaktoru.



## Darius Remeika

Böyük Vitovt Universitetində kiçik tədqiqatçı, Rabitə və İnformasiya Elmləri üzrə fəlsəfə doktoru tələbəsi, informasiya və psixoloji əməliyyatlar və dezinformasiya üzrə ekspert.



## Rimgailė Kasparaitė

Böyük Vitovt Universitetində kiçik tədqiqatçı, Kommunikasiya və İnformasiya elmləri üzrə fəlsəfə doktoru tələbəsi.



## Kristina Berksun

Böyük Vitovt Universitetində kiçik tədqiqatçı və kommunikasiya mütəxəssisi.



## Austėja Vaičiulevičiūtė

Dizayner

Azərbaycan dilinə tərcüməni hazırlayıb: Afsana Shamdinli

# ƏLAVƏ

**"İşarələrin mənasının açılması" materialı:** qruplar tərəfindən müzakirə ediləcək suallar

Ətraf mühiti necə təsvir edərdiniz? Sakit, səs-küylü, mehriban, aqressiv, yoxsa dominant? Bunu göstərən işarələr (media və informasiya obyektləri) hansılardır? Məsələn, elan lövhəsində çoxsaylı müxtəlif mesajlar görə bilərsiniz; bəzi mesajlar xoş və cəlbedici ola bilər (məsələn, debat klubuna qoşulmaq üçün dəvət), digərləri isə daha aqressiv ola bilər (məsələn, məktəb ərazisinə zibil atmamaqla bağlı təlimatlar).

Media və informasiya obyektində nələr görünür, nələr görünmür? Məsələn, seçilmiş informasiya obyekti "surətçıxarma maşını"dırsa, o, hansı məlumatları toplayır, məlumatları kim arxivləşdirir və saxlayır, məqsədi nədir, nə üçün istifadə olunur və s.

